# Elçinin əsərlərinin yeni nəşrləri













Xalq yazıçısı Elçinin əsərləri daima oxucuların, eləcə də ədəbi ictimaiyyətin diqqət mərkəzində olmuşdur. Tənqidin artıq "canlı klassik" adlandırdığı ədibin "Mahmud və Məryəm", "Ağ dəvə", "Ölüm hökmü" və "Baş" romanları, bir çox hekayələri ədəbiyyatımızda hadisə kimi qiymətləndirilmiş, oxucuların dərin rəğbətini qazanmışdır. Təsadüfi deyil ki, bu əsərlər müxtəlif nəşriyyatlar tərəfindən tez-tez nəşr olunurlar.

Yaxın günlərdə Elçinin yeni kitabları nəşr edilmişdir.

"Mahmud və Məryəm" romanı 1981-ci ildə çap olunduqdan sonra oxucuların sevimli əsərinə çevrilmiş, böyük şöhrən qazanmış, dəfələrlə nəşr edilmişdir. Roman bir çox dillərə tərcümə olunmuşdur. Onun əsasında Türkiyədə eyni adlı bədii film çəkilmiş, böyük uğur qazanmışdır. Bu günlərdə "Qanun" nəşriyyati "Mahmud və Məryəm"i nəfis şəkildə yenidən nəşr emişdir.

Elçinin ən məşhur əsərlərindən biri də "Ölüm hökmü" romanıdır. Bu roman Sovet İttifaqında yazılmış ən cəsarətli, siyasi-ictimai həqiqətləri gizlətməyən, həcm etibarilə də, məzmun etibarilə də böyük əsərlərdən biridir.

"Ölüm hökmü" də bir çox dillərə tərcümə edilmiş, bədii cəhətdən yüksək qiymətləndirilmişdir. Bu günlərdə "Parlaq imzalar" nəşriyyatı "Ölüm hökmü"nü "Modern Azərbaycan klassikləri" seriyasından bir daha oxuculara təqdim etmişdir.

Elçinin dramaturgiyası öz novatorluğu, mövzu aktuallığı, psixoloji dərinliyi ilə müasir dramaturgiyaya yeni nəfəs vermişdir. Onun pyesləri ilə Azərbaycanda absurd dramaturgiyanın əsasi qoyulmuşdur. Təsadüfi deyil ki, Azərbaycan sənətşünaslığında teatr estetikası ilə bağlı "Elçin teatrı" anlayışı yaranmışdır. Onun pyesləri Türkiyə, ABŞ, İngiltərə, İtaliya, Rusiya, Kipr, Ukrayna, Cənubi Koreya, Gürcüstan, Qırğızıstan və digər ölkələrin teatrlarında müvəffəqiyyətlə tamaşaya qoyulmaqdadır. "Aspoliqraf" nəşriyyatı Elçinin yeni pyeslərindən ibarət "Şeytan əməlləri" kitabını nəşr etmişdir. Kitaba eyni adlı pyeslə yanaşı, "Beşyüzüncü tamaşa, yaxud güzgünü sevməyən qız", "Stalin", "Bolbulustan şahzadəsi, yaxul Yaşasın imperator Böyük şirIII Otibi Molimi Delembor Tır-Tır" pyesləri daxil edilmişdir.

Oxucular Elçinin əvvəllər də nəşr olunmuş "Seçilmiş əsərləri" ilə tanışdırlar. "Aspoliqraf" nəşriyyatı ədibin yeni çoxcildliyinin birinci cildini nəşr etmişdir. Cilidə Elçinin seçilmiş hekayələri toplanmışdır. "Ön söz"ü müəllif özü yazmışdır.

Bu günlərdə nəşr edilmiş bir kitab haqqında da məlumat vermək istəyirik. Azərbaycan Milli Kitabxanası "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından böyük formatlı 670 səhifəlik "Elçin. Biblioqrafiya" kitabını nəşr etmişdir. (Tərtib edən Mətanət İbrahimova, Elmi redaktor professor Kərim Tahirov, Ön sözün müəllifi akademik Nizami Cəfərov.) Qeyd etmək lazımdır ki, 1997 və 2013-cü illərdə də Elçin haqqında Biblioqrafiya kitabları nəşr edilmişdir. Lakin yeni Biblioqrafiya daha da təkmilləşdirilmiş və genişlənmişdir.

***Nəzakət ƏHMƏDOVA***